Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Çoxsahəli elmi yaradıcılıq insanı Əziz Mirəhmədov

**Əziz Mirəhmədovun 100 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2020**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Çoxsahəli elmi yaradıcılıq insanı Əziz Mirəhmədov:** Əziz Mirəhmədovun 100 illik illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. - 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

# Giriş

Çoxəsirlik tariximizdə xalqımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır. Azərbaycan xalqı tarix boyu insan həyatının bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş, elmi ixtiraları, qəhrəmanlıq nümunələri, böyük tarixi memarlıq abidələri və bədii əsərləri, müsiqi ilə parlaq səhifələr yazmışdır. Bunların arasında şairlərimizin, yazıçılarımızın xidməti və tariximizin yaranmasında onların əsərlərinin qiyməti çox böyükdür.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Əvəzsiz milli sərvətimiz olan qədim və zəngin Azərbaycan ədəbiyyatının öyrənilməsi istiqamətində indiyədək bir çox dəyərli işlər görülmüşdür. Orta çağ təzkirəçiliyindən başlayıb çağdaş fundamental filoloji araşdırmalara qədər uzunömürlü və irimiqyaslı bir kontekst çevrələyən ədəbiyyat tarixçiliyimiz zaman-zaman öz milli təcrübi uğurlarını yekunlaşdıran ümumiləşdirici ədəbiyyat tarixlərini ictimaiyyətə çatdırmışdır. Firidun bəy Köçərli, Əmin Abid, İsmayıl Hikmət, Salman Mümtaz, Fuad Köprülü, Məmməd Arif, Məmməd Cəfər, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Mirzağa Quluzadə, Mir Cəlal, Feyzulla Qasımzadə və başqa görkəmli tədqiqatçıların bu yöndəki ardıcıl, sistemli fəaliyyəti Azərbaycan filoloji fikrinin inkişafında mühüm rol oynamışdır.

Uzun illər hətta mütəxəssislər üçün də naməlum qalmış bu ədəbiyyatın öyrənilməsi və geniş ictimaiyyətə çatdırılmasının əhəmiyyəti özlüyündə aydındır. Belə ki, harada meydana çıxmasından asılı olmayaraq, hər hansı xalqın mənəvi irsinin ayrılmaz tərkib hissəsidir və onun öyrənilməsi ən azı həmin

ədəbi irs haqqında təsəvvürün düzgünlüyü və bütövlüyü üçün zəruridir. Təbii ki, bu ədəbiyyatın öyrənilməsində ən vacib iş onun başlıca nümayəndələrinin ictimai fəaliyyətinə, elmi-ədəbi yaradıcılığına dair xüsusi, dərin və hərtərəfli araşdırmaların həyata keçirilməsindən ibarət olmalıdır.

Ziyalı qələm sahibi, ədəbiyyatşünas, tənqidçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1959), Azərbaycanın Əməkdar elm xadimi (1982), filologiya elmləri doktoru (1976), Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü (1980) Əziz Mirəhmədovun 100 illik yubileyi münasibətilə yazılmış bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Çoxsahəli elmi yaradıcı şəxsiyyət"* adlanır və elm xadiminin həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Əziz Mirəhmədov 1920-ci ildə Bakı şəhərində doğulmuşdur. İlk təhsilini Bakıda M.A.Əliyev və M.F.Axundov küçələrinin kəsişdiyi yerdə olan 25 nömrəli məktəbdə almışdır. Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuşdur. İlk məqaləsi hələ tələbə ikən "Azərbaycan müəllimi" nin sələfi olan "Müəllim qəzeti" nin 13 may 1938-ci il nömrəsində çap olunmuşdur. 1941-ci ildə APİ-ni bitirdikdən sonra gənc Əziz bir qədər orta və ali məktəblərdə dərs deyir, 1942-ci ildə Mərdəkandakı 156 nömrəli məktəbdə müəllim işləyir. 1943-1948-ci illərdə ADU-nun "Azərbaycan ədəbiyyatı" kafedrasında baş müəllim vəzifəsini tutur. Xalq şairi B.Vahabzadə də onun tələbəsi olmuşdur. Bəxtiyar Vahabzadənin xatirəsində deyilir: "Xəyalım ilk tanışlığımıza - 1943-cü ilin sentyabrına getdi. Bu o gün idi ki, gənc, ucaboy, qarayanız aspirant Əziz Mirəhmədov bizə dərs deyirdi. Gənc olmasına baxmayaraq, onda çılğınlığın, ötkəmliyin əlaməti belə

yox idi. Çox asta və təmkinlə danışar, izah etmək istədiyi mətləbi yalnız faktlarla bizə dərk etdirməyə çalışardı”. Onu yaxşı tanıyan müəllimləri H.Araslı və M.Arif tezliklə Əziz Mirəhmədovu Nizami adına Ədəbiyyat və Dil İnstitutuna dəvət edirlər. “Cəlil Məmmədquluzadə və XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişaf mərhələləri” mövzusunda dissertasiyasını müdafiə edib elmlər doktoru adını alır, 1980-ci ildə AMEA-nın müxbir üzvü seçilir. Azərbaycan ədəbiyyatının bir sıra açılmamış səhifələri Əziz müəllimin qismətinə düşmüşdü. O, “Molla Nəsrəddin” jurnalının 25 illik nömrələrinin transliterasiyası, 12 cilddə çapa hazırlanması və birinci cildin nəşr edilməsi işini də başa çatdırmışdı.

Bütün fəaliyyəti boyu çox məhsuldar işləyən Əziz Mirəhmədov 18 kitabın, 500-dən artıq elmi məqalənin müəllifidir. Onun “M.F.Axundov” (1953), “Abdulla Şaiq” (1956), “Sabir” (1958), “Məhəmməd Hadi” (1962 və 1981), “Azərbaycan Molla Nəsrəddini” (1980), “Satirik gülüşün qüdrəti” (1981), “Ağlar güləyən” (1989) monoqrafiyaları, “XX əsr Azərbaycan ədəbiyyatında satiranın inkişafına dair”, “Zakir və XIX əsr Azərbaycan satirası”, “XX əsrin əvvəllərində ədəbi hərəkat: tənqidi realizm” və s. sanballı məqalələri ədəbiyyatımızın tarixinin öyrənilməsində ən etibarlı mənbələrdəndir. Hələ 40-cı illərdə gənc Əziz iki cildlik “Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi” nin (1943-1944) hazırlanmasında yaxından iştirak edərək ilkin təcrübə qazanmış, sonrakı illərdə isə püxtələşmiş alim kimi üççildlik “Azərbaycan ədəbiyyatı tarixi” nin (1958-1960) əsas müəlliflərindən biri olmuşdur. O, nəşri planlaşdırılmış yeddicildlik “Azərbaycan ədəbiyyatı tarixi” nin də aparıcı müəlliflərindən biri idi. Yorulmaz tədqiqatçının böyük zəhməti bahasına müxtəlif illərdə Cəlil Məmmədquluzadənin əsərlərinin ikicildliyi (1951-1954), üççildliyi (1966-1967) və altıcildliyi (1981-1985) çapa

hazırlanıb nəşr edilmiş, onun tərəfindən hər nəşrə müqəddimə, izah və şərhlər yazılmışdır.

Əziz Mirəhmədovun M.Ə.Sabir haqqında Bakıda və Moskvada çap etdirdiyi fundamental monoqrafiyalar ədəbiyyatımızda ictimai satiranın tarixi gerçəkliyin təsiri ilə yeni, mütərəqqi məzmun qazanmasını, Sabir poeziyasının Azərbaycanda yeni tipli ədəbiyyatın təşəkkülündə rolunu, onun Yaxın Şərq xalqlarının ədəbiyyatında tənqidi-realist meylin inkişafına təsirini aydınlaşdırmaqla yanaşı, şeirimizin poetik təkamülündə orijinal hadisə olduğunu və XX əsrdə davam etməkdə olan epiqon şeirin aradan götürülməsində praktik əhəmiyyətini üzə çıxarır. “Xudojestvennaya literatura” nəşriyyatının çap etdiyi “Ağlar güləyən” monoqrafiyası Sabir irsini keçmiş sovet məkanında təbliğ və təqdir etdiyi kimi, ədəbiyyatşünaslığımızın da bu səviyyədə təmsil olunmaq hüququnu və imkanlarını nümayiş etdirdi.

Əziz Mirəhmədovun ömrünün əsas hissəsi Azərb. EA Nizami ad. Ədəbiyyat İnstitutu ilə bağlı olmuşdur. O, kiçik fasilələrlə həmin İnstitutda 60 ilə yaxın işləmişdir: Mirəhmədov Əziz institutda laborant kimi işə başlamış (1942), kiçik elmi işçi, baş elmi işçi, mətnşünaslıq şöbəsinin müdiri (1964 il-dən), direktor müavini (1980-1981), direktor (1981-1985) vəzifələrində çalışmışdır. Mirəhmədov Əziz müxtəlif illərdə ADU-nun baş müəllimi (1943-1948), "Azərnəşr"in baş redaktoru (1949-1951), Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyinin direktoru (1959-1960), Azərb. KP MK-nın Təbliğat və Təşviqat şöbəsi müdirinin müavini (1960-1963), İdeologiya şöbəsi müdirinin birinci müavini (1963-1964) vəzifələrində səmərəli fəaliyyət göstərmişdir.

## Kitabxanada keçiriləcək tədbirlər

Görkəmli alimin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə keçirilə bilər. Ədibi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Çoxsahəli elmi yaradıcı şəxsiyyət – Əziz Mirəhmədov", "Şeyxnəsurullahçılıq və...", "Ziyalı qələm sahibi, ədəbiyyatşünas – Əziz Mirəhmədov", "Faydalı tədqiqatlar adamı Əziz Mirəhmədov", "XX əsrin görkəmli ədəbiyyatşünası – Əziz Mirəhmədov" və s.






Əziz Mirəhmədovun 100 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Əziz Mirəhmədovun dünyası"* adlı **dəyirmi masa** ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olaraq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Əziz Mirəhmədovun yaradıcılığı haqqında qısa məlumat verir.

*Kitabxanaçı:* Anadan olmasının 100 illiyini qeyd etdiyimiz Əziz Mirəhmədov klassik filoloji təhsil görmüş alimlərimizdən idi. O, sözün həqiqi mənasında filoloq idi. Onun tarixi ədəbi gedişata münasibətindəki elmi tutum vüsəti və miqyası bu amillə bağlı idi. Əziz müəllim 20-30-cu illərdə Azərbaycanda fəaliyyət göstərmiş elə alimlərin yaratdıqları məktəbin tələbəsi və davamçısı idi ki, onlar universal təfəkkür sahibi idilər və ədəbiyyata da tarixi, fəlsəfi, estetik, linqivistik və tekstoloji problemləri özündə cəmləşdirən masştabda nəzər yetirirdilər. Əziz müəllimin dərs aldığı Həmid Araslı, Mir Cəlal, Feyzulla Qasımzadə, C.Xəndan, Əli Sultanlı 20-30-cu illər Bakı Universitetində dərs demiş məşhur alimlərin yetirmələri idilər. Bakı Universitetini təşkil etmiş Razumovskinin dəvəti ilə burda çalışmış dövrünün görkəmli alimləri A.Ziffeld, V.Zummer, N.Mar, Vyl. İvanov, A.Makovelski, A.Bukşpan, N.Aşmarin və başqaları Bakı Universitetini mötəbər elm mərkəzinə çevirdilər.

Əziz Mirəhmədovun ədəbiyyat tarixi və nəzəriyyəsi, mətbuat tarixi, mətnşünaslıq, biblioqrafiya və kitab mədəniyyətinə, həmçinin müasir ədəbi prosesin əsas istiqamətləri və imzaları haqqında çoxsaylı tədqiqatları onun elmi maraq dairəsinin genişliyini göstərməklə yanaşı, alimin bir tədqiqatçı kimi fərdi təhlil üsulunun da üstünlüklərini üzə çıxardır. Öz yaradıcılığının əhatə dairəsi və tədqiqat üsulunu müəyyən edən şərtləri izah edərkən yazırdı: "Belə bir tədqiqat üsuluna şəxsi arzudan daha artıq milli ədəbiyyatın özünəməxsus xüsusiyyətlərindən irəli gələn bir hal kimi baxılsa, daha doğru olar. Çünki dünya

xalqlarının çoxu kimi, azərbaycanlıların da son iki əsrdəki mənəvi inkişafına ədəbiyyatla teatr, mətbuatla elm, musiqi ilə kitab vəhdət halında, bir-biri ilə bağlı ideoloji və estetik tərbiyə vasitələri halında xidmət etmişdir. Bunu bir çox Azərbaycan xadimlərinin eyni zamanda mədəniyyətin müxtəlif sahələrində səylə çalışmaları faktı aşkar etməkdədir”.

Arxiv, sənəd, fakt yığımı ilə tarixi dövrlərin ictimai, fəlsəfi, siyasi, ədəbi, dini institutları arasındakı dialektik vəhdəti nəzərə alaraq onlar arasındakı əlaqənin mahiyyətini üzə çıxartmaqla elmi ümumiləşdirmələr aparmaq Əziz Mirəhmədovun bir ədəbiyyatşünas kimi seçdiyi təhlil üsulu, tədqiqatçılıq keyfiyyətidir. Buna görə də müasir demokratik mövqedən yanaşanda onun əsərləri elmi fikrin yeni mərhələsində “əliboş” qalmır. Əksinə, XIX və XX əsrlər bədii fikri haqqında yenidən düşünməkdə fakt, sənəd cəbbəxanası, mübahisə, mühakimə təcrübəsi kimi yaşamaq hüququnu ehtiva edir. Digər tərəfdən, alimin Avropa və rus ədəbiyyatşünaslıq məktəbləri ilə yanaşı, Şərq, xüsusən türk ədəbiyyatşünaslıq və estetik fikrinə eyni dərəcədə bələdliyi onun tədqiqatlarında birtərəfli qiymətləndirmə və təhlil prinsiplərini, əsasən, aradan götürür.

Bədii fikir tariximizin XIX əsr və XX əsrin əvvəlləri dövrünü ideya-poetik cəhətdən yeni mərhələ kimi mənalandıran amillərin kompleks şəklində öyrənilməsində Ə.Mirəhmədovun da xidmətləri böyükdür. O, müəllimləri və yaşıdları ilə birgə bu tarixi epoxaların ədəbi fikrinin mürəkkəb inkişaf yolunu öyrənməyin nəzəri-metodoloji əsaslarını hazırlamaqla yanaşı, ictimai fikir cərəyanları ilə ədəbi fikrin əlaqələrini, bu əlaqələrin milli və regional baxımdan düzgünlüyünü üzə çıxartmaqda ciddi nailiyyət qazanmışdır. “Azərbaycanda Mirzə Fətəli əsri” nin Əziz müəllimin tədqiqatlarında ardıcıl yer tutması həmin dövrün ictimai və ədəbi hadisələrinin xalqımızın tarixi tərəqqisində böyük tarixi mənası ilə bağlı idi. Heydər Hüseynovun “XX əsr

Azərbaycan ictimai-fəlsəfi fikir tarixindən" əsəri tarixi, fəlsəfi və ədəbi-estetik amilləri əhatə etdiyi üçün XIX əsri bədii fikirdə də yeni dövr kimi səciyyələndirməkdə ədəbiyyatşünaslıq üçün də nəzəri özül idi. Müəyyən tarixi dövrdə elmi dövriyyədən mexaniki çıxarılmış bu fundamental əsər öz tarixi missiyasını yerinə yetirmişdi. Xüsusən, Azərbaycan maarifçilərinin rus və Avropa fikri ilə yanaşı, islam sivilizasiyası və maarifçiliyi ilə bağlaması ədəbiyyatşünaslığın da bu tənasübü gözləməsində nüfuzlu söz idi. Ə.Mirəhmədovun "M.F.Axundov" (1953), "XIX əsr Azərbaycan ədəbiyyatında satiranın inkişaf məsələsinə dair", "Zakir və XIX əsr Azərbaycan satirası", "Qəribə tale", "M.F.Axundov və K.Volney" kimi əsərləri, ümumən "Azərbaycan ədəbiyyatına dair tədqiqlər" kitabında toplanmış əksər məqalələr XIX əsr Azərbaycan ədəbiyyatının öyrənilməmiş məqamlarını, onun digər xalqların ədəbi-mədəni irsi ilə əlaqələrini, həmçinin ədəbiyyatımızda yeni yaranan janrlar, üslublar haqqında ilkin təsəvvür yaradan araşdırmalardandır.

Əziz Mirəhmədovun XIX əsrin ədəbiyyatının əsas simaları, onların ədəbi irsinin üzə çıxarılması sahəsindəki fəaliyyəti XIX əsr ədəbiyyatını konkret problemlər, o cümlədən ayrı-ayrı ədəbi-estetik kateqoriyaların bu dövrdə ədəbiyyatımızda təşəkkülü, təkamülü baxımından öyrənməkdə elmi fikri zəngin faktlarla, tarixi əsəri qiymətləndirməyin real təcrübəsi ilə təmin etdi. XIX əsrdə formalaşmış yeni tipli ədəbiyyatın bir çox kateqoriyaları XX əsr gerçəkliyinin səciyyəsi ilə bağlı yeni inkişaf dövrünə daxil olur. XX əsr ədəbiyyatında böyük vüsət tapan ideyaların başlanğıcı XIX əsrin ədəbi-fəlsəfi irsi ilə bağlı olduğundan ədəbi-bədii fikrin iki əsrdəki varis-irs əlaqələri ümumən ədəbiyyatşünaslığın, o cümlədən Əziz Mirəhmədovun tədqiqatlarının mərkəzində dayanar.

XX əsr, başqa sözlə sovet dövrünə qədərki dövrün ədəbiyyat tariximizdə bir mərhələ kimi fərdiləşdirilməsində, onu ehtiva edən ədəbi məktəblərin, yaradıcılıq metodlarının, ədəbiyyatın janr və üslub zənginliyinin, mətbuatdakı intibahın tədqiqində Mir Cəlal, C.Xəndan, Əziz Şəriflə yanaşı Əziz Mirəhmədovun və Kamal Talıbzadənin xidmətləri müstəsnadır. XX əsr ədəbiyyatının toplanması, nəşri, tədqiqi və təbliği istiqamətində ölkəmizdə həyata keçirilmiş elmi-təşkilati işin əsas müəlliflərindən və rəhbərlərindən biri Əziz Mirəhmədovdur.

Ə.Mirəhmədovun ən böyük tarixi xidmətlərindən biri məhz XX əsr ədəbiyyatı ilə bağlı faktik materialın üzə çıxarılmasında gördüyü titanik işdir. 40-cı illərdə bu dövrün tədqiqindəki mövcud çətinliklərdən bəhs edərkən yazırdı: "...Müharibə illərində və bir qədər ondan sonra hətta ədəbi-tarixi faktların böyük bir hissəsinin sadəcə toplanılıb sistemə salınması və tədqiqata cəlb olunması vacib idi; bunsuz nə ədəbiyyat tarixinin bütöv mənzərəsini yaratmaq, nə də böyük problemlərin əsl elmi həllinə nail olmaq mümkün idi". O dövrdəki tədqiqatlarda nəzəri ümumiləşdirmənin istənilən səviyyədə olmamasını, təsvirçiliyin köklərini sonralar aydınlaşdıraraq yazırdı: "Tədqiqatın xeyli vaxt aparan, üzücü texniki çətinlikləri, məsələn, qiymətli arxiv sənədlərinin, əlyazma və mətbu mətnlərin minlərcə səhifəsinin əllə köçürülməsi bəzən həmin faktoqrafik materialın elmi-nəzəri cəhətdən kifayət qədər dərindən dərk olunub mənalandırılması imkanını da azaldırdı. Hələ onu demirik ki, ta 60-cı illərin axırlarına qədər "Molla Nəsrəddin" jurnalı kimi birinci dərəcəli əhəmiyyətə malik bir məxəz, nə Bakının, nə də Tbilisi, Moskva, Leninqrad və başqa şəhərlərin arxivində tam komplekt halında toplanmamışdı, bu jurnalın ictimai-ədəbi təsiri, nəşri tarixi, ədəbiyyat və mətbuat tarixindəki mövqeyi haqqında çox az şey məlum idi".

XX əsr ədəbiyyatı və mətbuatımızın görkəmli bilicisi və tədqiqatçısı kimi, Əziz Mirəhmədovun uzun illərdən bəri əldə etdiyi elmi araşdırma təcrübəsi, universal tədqiqatçılıq keyfiyyəti “Azərbaycan Molla Nəsrəddini” monoqrafiyasında əyaniləşdi. Bu əsər təkcə Ə.Mirəhmədovun yox, ümumilikdə ədəbiyyatşünaslıq elmimizin müəyyən tarixi bir dövrünün yekunu və nailiyyəti oldu. Monoqrafiyada Mirzə Cəlilin milli mətbuat, publisistika tariximizdə əvəzsiz xidmətləri “Mollanəsrəddinçilik” fikir cərəyanını şərtləndirən ədəbi, ictimai və estetik problemlərin fonunda professional elmi şərhini tapmışdır. C.Məmmədquluzadənin mənəvi mədəniyyətimizin yüksəlişində böyük tarixi xidmətləri kitabda zəngin arxiv sənədləri, yeni fakt və mülahizələrlə əyaniləşdirilir. Demokratik maarifçilik, mütərəqqi xalqçılıq ideyalarının C.Məmmədquluzadənin ədəbi-ictimai görüşlərinin formalaşmasında xüsusi rolu aydınlaşdırılır, yazıçının dünya ədəbiyyatına yaradıcı münasibəti konkret əsərləri təhlili məntiqi ilə sübut olunur. XX əsrdə Azərbaycanda gedən ideoloji və ədəbi mübarizələrdə mollanəsrəddinçilərin xidmətləri, demokratik ideyaların “Molla Nəsrəddin” jurnalının ideya və tematikasının müəyyənləşməsində xüsusi əhəmiyyəti kitabda ilk dəfə olaraq zəngin ədəbi-tarixi məxəzlər əsasında şərh olunur. Cəlil Məmmədquluzadənin Cənubi Azərbaycan və İran maarifçiliyi ilə əlaqəsi, onun publisist yaradıcılığının əsas cəhətləri, realist ədəbiyyat və satirik jurnalistikanın tərəqqisində rolu yeni mövqedən təhlil edilir. Monoqrafiya Cəlil Məmmədquluzadənin ədəbi-ictimai fəaliyyəti haqqında sanballı elmi hadisə olmaqla, XX əsrin əvvəllərində Azərbaycanda ictimai həyatın, mətbuat və ədəbiyyatdakı ideoloji cəhətlərin, metod və ədəbi üslubların mahiyyəti haqqında da real təsəvvür yaradır.

40-50-ci illərdə ədəbiyyatşünaslarımız XX əsr romantizminin ideya-estetik mahiyyətini dövrün nəzəri fikri səviyyəsindən dərk və təsdiq etməyə çalışırdılar.

Ə.Mirəhmədovun XX əsr Azərbaycan romantizminin tədqiqi sahəsindəki fəaliyyəti bu gün daha mənalı görünür. Onun A.Şaiq, M.Hadi, A.Səhhət haqqında monoqrafiyaları, çoxsaylı məqalələri XX əsr romantizminin tarixi və nəzəri problemlərini həll etməyə güclü təkan verdi. M.Hadinin ədəbi irsi məhz Ə.Mirəhmədovun inadı, vətəndaşlıq səyi nəticəsində xalqa çatdırıldı, bu böyük sənətkarın bədii fikir tariximizdə yeri onun çoxsaylı elmi axtarışları nəticəsində müəyyən olundu. Ə.Mirəhmədovun romantiklərə həsr edilmiş araşdırmalarında bu sənətkarların fərdi yaradıcılığı XX əsr romantizminin ideya-bədii prinsipləri ilə vəhdətdə şərh edilir.

Kitabxanada keçiriləcək ənənəvi tədbir forması kimi **“Faydalı tədqiqatlar insanı”** adlı *kitab müzakirəsi* də keçirilə bilər. Oxucuların istəyini nəzərə alan kitabxanaçı oxucularla birgə Əziz Mirəhmədovun “yazıçılar, talelər, əsərlər” adlı kitabını müzakirə edə bilər.

*Kitabxanaçı:* Klassik söz ustaları, qeyri-adi taleli, unudulmuş yazıçılar, jurnalistlər, əsərlər... Xalq həyatı və sənətkar, beynəlmiləl dostluğun bədii inikası, Azərbaycan sovet ədəbiyyatı və təhlili-kitabda bunlardan söhbət açılır.

Əsərlərin bir çoxunda yeni üzə çıxarılan qiymətli məxəzlərdən istifadə olunmuşdur ki, bu, bəzi elmi problemlərin həllinə məlum müddəaların daha möhkəm əsaslandırılmasına, dəqiqləşdirilməsinə kömək edəcəkdir.

Bədii ədəbiyyatımızın və mətbuat tariximizin inkişaf mərhələlərinə, klassiklərimizin və müasir ediblərimizin həyatına, şəxsiyyətinə onların milli mədəniyyətlərə münasibətinə, bu mədəniyyətlərin qabaqcıl nümayəndələri ilə məfkurəvi həmrəyliyinə, cəmiyyət hadisələri ilə, mühüm

siyasi-ictimai təbəddülatlarla əlaqəsinə aid tarix ədəbi faktları diqqətlə, məhəbbətlə, xüsusi səliqə ilə ortaya çıxarıb öyrənmək, mənalandırmaq və aydınlaşdırmaq səyi, böyük zəhmət tələb edən dəqiq, ehtiraslı elmi axtarıcılıq ədəbiyyatşünas və tənqidçi Əziz Mirəhmədovun özünəməxsus tədqiqatçılıq üsuludur.

Bu kitabda onun 1946-1976-cı illərdə klassik irsə aid tədqiqlərini bir sıra nəticələri, Azərbaycan sovet ədəbiyyatı, tənqidi və ayrı-ayrı yazıçılar haqqında məqalələri, qeydləri toplanmışdır. Təbii ki, otuz illik bir dövrün məıhsulu olan bu əsərlərin mövzu dairəsi geniş olduğu kimi, elmi tədqiqat və təhlil səviyyəsi də müxtəlfdir: ilk işlərindən olub, çox yeri təsviri və təfsiri səciyyə daşıyan “Füzuli qəzəlləri” (1946) məqaləsini çap etdirdiyi vaxtdan son illərin əsərlərini yazıçıya qədər müxtəlif səmərəli inkişaf yolu keçmiş, tədqiqatını problematika cəhətindən genişləndirməklə bərabər elmi cəhətdən dərinləşdirmək üçün çox çalışmışdır.

“M.F.Axundov Gürcüstanda”, “S.Ə.Şirvaninin bir elmi əsəri”, ““Molla Nəsrəddin” çap məhkəməsi qarşısında”, “M.Qorkinin azərbaycanlı məsləkdaşı”, “Qərib tale” və s. tədqiqləri müəllifin yeni axtarışları, tapıntıları ilə diqqəti cəlb edir.

Tədqiqatçı mötəbər tarixi məxəzlərə, arxiv sənədlərinə, dövri mətbuat materiallarına, xatirələrə əsaslanaraq S.Ə.Şirvaninin Azərbaycan tarixi və etnoqrafiyasına aid naməlum bir elmi əsərini təhlil edir və ciddi elmi əhəmiyyəti olan bu əsərini 1882-ci ildə Tiflisdə “İzvestiya Kavkazskoqo obşestva istorii i parxeoloqii” məcmuəsində dərc edildiyini müəyyənləşdirir.

“Müasirliyin ön xəttində” adlı tədqiqatda Azərbaycan sovet nəsrinin görkəmli nümayəndələrindən olan Ə.Əbülhəsənin yaradıcılığının geniş təhlili verilir. “Mükafatını vicdanından almışdır”, “Vətən havası üçün qəribsəmişəm” xatirə və məqalələrində müəllif əməlpərvər yazıçılarımız S.Vurğun və

S.Sani Axundovun simasında parlaq təzahürünü tapan və həqiqi sənətkarlara, söz ustalarına xas olan xalqa, ideyalılıq, vətənpərvərlik, insanpərvərlik, sadəlik, təvazökarlıq, fədakarlıq, yüksək yazıçılıq mədəniyyəti, şəxsiyyətin bütövlüyü kimi nəcib insani keyfiyyətləri görüb qiymətləndirir.

Əziz Mirəhmədovun tədqiqləri ədəbi-elmi məxəz və faktların zənginliyi, mühakimələrin dürüstlüyü, inanadırıcılığı və yaradıcılığın psixologiyasına nüfuz etmək səyi ilə fərqlənir. Yeni üzə çıxarılan faktların bir çoxu ədəbiyyat və mətbuat tarixində, bu və ya başqa yazıçının yaradıcılığında uzun zaman qaranlıq qalmış bəzi məsələlərin, cəhətlərin işıqlandırılmasında istər müəllifin özünə, istərsə də onun həmkarlarına kömək etdiyi üçün əhəmiyyətlidir.

Müəllifin axtarıcılığı eyni zamanda elmi əsərdə məzmuna uyğun forma yeknəsəqliyindən, təsvirçilikdən uzaqdır. Ən əhəmiyyətlisi-bu tədqiqlər ədəbiyyat və mətbuat tarixi, ədəbi əlaqələr və ayrı-ayrı yazıçıların həyatı haqqında bildiyimizi artırır.

Əziz Mirəhmədovun 100 illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də *"Əziz Mirəhmədovun gözü ilə ədəbiyyat"* adlı **konfransdır.** Bu məqsədlə kitabxanaçı bir neçə ali məktəblərlə əməkdaşlıq edir. O, ali məktəb tələbələrini və oxucuları kitabxanaya cəlb etməklə elm adamı, ədibşünas Əziz Mirəhmədovun gördüyü işlər və alimin kitabları ilə tanış edir. Kitabxanaya abunə olan tələbə və oxucular görkəmli elm xadiminin gördüyü işlərlə yaxından tanış olurlar. Daha sonra kitabxanaçı sözü gedən tədbir üçün müəyyən olunmuş tarixdə oxucuları kitabxanaya dəvət edir. Konfransa bir neçə qonaq iştirak edir. İlk olaraq kitabxanaçı ziyalı qələm sahibi, ədəbiyyatşünas, tənqidçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Əziz Mirəhmədovun həyat və yaradıcılığı haqqında oxucuları məlumatlandırır.

*Kitabxanaçı:* "Alimin qələminin mürəkkəbi şəhidin qanından üstündür". Hər dəfə həzrəti Peyğəmbərimizin (s.) bu təsirli kəlamı yadıma düşəndə qeyri-ixtiyari olaraq şəxsiyyətinə və elminə böyük ehtiram bəslədiyimiz çox hörmətli Əziz Mirəhmədovun imzası və bütövlükdə gözlərimiz önünə gəlməyə bilməz.

Yalnız ədəbiyyatşünaslığımızda deyil, bütövlükdə XX əsr ictimai fikir tariximizdə şeyxnəsurullahçılıq və kefli isgəndərçilik anlayışları var. Əlbəttə, şeyxnəsurullahçılıq daha güclüdür, ilkindir, kefli isgəndərçilik törəmədir, o anlayışın üstündə durur. Bu anlayışlar məişətimizə elə daxil olublar ki, biz gündəlik həyatımızda əlimizi birinə uzadıb deyirik, " bu, Şeyx Nəsrullahdır", o birinə deyirik "bu, kefli İsgəndərdir". Şeyxnəsurullahçılıq deyəndə təsəvvürümüzdə bir cahillik, nadanlıq, eyni zamanda klassik fırıldaçılıq abidəsi canlanır. Mirzə Cəlil bu abidəni elə tökmüş elə yonmuşdur ki, ən uca heykəltaraş ona qibtə edə bilər. Şeyx Nəsrullah cəhalət toxumu səpir, onu cənnət meyvəsi kimi bəsləyir və ondan rahatca bəhrələnir. Şeyx Nəsrullah Mirzə Cəlilin Füzuliyanə bir mübaliğəsidir. Füzuli Yaradandan arzulayır ki, "Məcnun kimi nəzmimi cigərsuz eylə". Şeyx Nəsrullah arzulayır ki, "Müsəlmanı qoyun kimi dilsiz-ağızsız etsin". Məcnun Leylisinə necə vurğundursa, Şeyx Nəsrullah cahilliyin eləcə divanəsidir. Ancaq Məcnun öz ideyasının-Leylisinin yolunda əzablar çəkir, canını verir, Şeyx Nəsrullah isə cahillikdən yalnız sevinc götürür; yalnız faydalanmaq üçün cahilliyin vurğunudur. O, meyvə kimi bitirdiyi, aşiq olduğu cahilliyin üstünün açıldığını duyarkən qaçıb aradan çıxır və özünü öz idealına məcnuncasına qurban vermir. Füzulinin "Məcnunun ahından bir qığılcımla dəryanı səhraya, gözünün yaşından bir damcı ilə səhranın dəryaya dönməsi" mübaliğəsi nə qədər təbii, ürək oxşayan və qeyr-mümkün görünürsə, Mirzə Cəlilin "Ölünün dirilməsi" kimi

qeyri-mümkün kinayəsi şeyx nəsrullahlar aləmində, şeyxnəsrullahçılığın hökm sürdüyü ictimai mühitdə o qədər təbii, inandırıcı və ürək yandırıcı görünür. Şeyxnəsrullahçılıq cəmiyyətdə zülmət səltənəti deməkdir, cəmiyyətin vicdanında bir yaradır, cəmiyyətin sifətinə bir dəhşətli sillədir. Şeyxnəsrullahçılığın mahiyyəti avamlıq mühitində riyanın, nəfsin, zülmətin təntənəsi deməkdir. Şeyxnəsrullahçılıq xalqın zəfliyindən, avamlığından kam almaq, sevinmək, muradına çatmaqdır. Əgər Mirzə Cəlilin şeyxnəsrullahçılığın müqabilinə kefli isgəndərciliyi çıxarmasaydı, o, millətini yasa qərq etmiş olar, onu ümidsizləşdirilmiş olar, millətinin istedadına göz yummuş olardı. Mirzə Cəlil şeyxnəsrullahçılıq obrazında nə qədər romantikdirsə, nə qədər mübaliğəyə varırsa, kefli isgəndərcilikdə o qədər realistdir, o qədər müstəqimdir. İsgəndərcilikdə mübaliğə varsa, biri keflilikdir. Burada keflilik şeyxnəsrullahçılıqdan qorunmaq üçün bir Ezop fəndidir, Bəhluli-danəndə xislətidir, işığı zülmət küləyindən qoruyan bir qalxandır. Əslidə şeyxnəsrullahçılıq səltənətində ən ayıq və yeganə ayıq şəxs Kefli İsgəndərdir. Burada bir mübaliğə də Kefli İsgəndərin meydanda təkliyidir. Kefli İsgəndərçiliyin mahiyyəti də bu təkliyində, tək mənliyi ilə milləti özündə qərq etmək üçün şahə qalxmış cahillik dalğasına sinə gərmək xislətindədir. Kefli İsgəndərin təkliyi ilə Mirzə Cəlil millətinə deyir ki, sənin bir işıqlı oğlun bu yüzlərdən ibarət nadanlıq ordusunu ifşa edirsə, məhv edirsə, gör sənin onlarla belə işıqlı, ayıq övladın əl-ələ verib nələr edə bilər və bu övladların var: C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyov, Ə.Ağaoğlu və çoxlu-çoxlu oğulların və biri də on bir il sonra doğulacaq Əziz Mirəhmədov Bəhluli-danəndədən əvvəl də, sonra da xalqımız Bəhluli-danəndə müdrikliyinin işığını görüb. Bu Bəhluli-danəndələrdən birini XX əsrdə Kefli İsgəndər adı ilə Mirzə Cəlil yaratdı. Bizim həmişə Kefli İsgəndərlərimiz olub,

dünən də olub, bu gün də var, sabah da olacaq. Kefli İsgəndərin ayıqlığına, mübarizliyinə, çıxılmaz anlarda işığa çağırıb sözünü deməsinə həmişə ehtiyacımız var. Mirzə Cəlil Kefli İsgəndəri əbədiyyət üçün yaradıb. O, dünən Şeyx Nəsrullahla mübarizə aparırdı, sabah millətin başqa bir qənimi ilə döyüşdə öz sözünü deyəcəkdir. Kefli İsgəndərciliyin məzmunu burur. O, şeyxnəsrullahçılığın xarabalıqları üzərində bir ulduz kimi dayanıb, millətinin ürəyinə ümid, dözüm, iradə işığı verir.

Kitabxanada keçiriləcək tədbirlərdən ən möhtəşəmi ədəbi-bədii gecədir. Əziz Mirəhmədovun xatirəsinə həsr olunmuş ***"Əziz Mirəhmədovun ədəbiyyatşünaslıq obrazı"*** adlı *ədəbi-bədii gecəyə* Azərbaycanın görkəmli ədiblərini, sənət-söz adamlarını dəvət etmək olar. Tədbir iştirakçıları kitab sərgisi ilə tanış olduqdan sonra zalda əyləşirlər. Ziyalı qələm sahibi, ədəbiyyatşünas, tənqidçi Əziz Mirəhmədovun həyat və yaradıcılığından bəhs edən slaytdan sonra tədbiri açıq elan etmək üçün aparıcılar səhnəyə daxil olurlar.

***I aparıcı:*** Əziz Mirəhmədovun tədqiqləri ədəbi-elmi məxəz və faktların zənginliyi, mühakimələrin dürüstlüyü, inanadırıcılığı və yaradıcılığın psixologiyasına nüfuz etmək səyi ilə fərqlənir. Üzə çıxarılan faktların bir çoxu ədəbiyyat və mətbuat tarixində, bu və ya başqa yazıçının yaradıcılığında uzun zaman qaranlıq qalmış bəzi məsələlərin, cəhətlərin işıqlandırılmasında istər müəllifin özünə, istərsə onun həmkarlarına kömək edir. Belə ədəbi-tarixi həqiqətlər gələcək tədqiqatların dairəsini genişləndirməyə və məzmunu dərinləşdirməyə kömək etdiyi üçün əhəmiyyətlidir.

***II aparıcı:*** Görkəmli Azərbaycan alimi, Respublika Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Əziz Mirəhmədov milli ədəbiyyatşünaslıq elminin inkişafında xüsusi yer tutan simalardan biridir. Onun elmi-tədqiqat dairəsi çox geniş olub, M.Füzuli, M.P.Vaqif, İ.Qutqaşınlı, Q.Zakir,

M.F.Axundov, C. Məmmədquluzadə, M.Ə. Sabir, M.Hadi kimi klassik sənətkarların həyat və yaradıcılığının öyrənilməsi, onların bədii irsinin ədəbi-tarixi və elmi-tekstoloji tədqiqi, çapa hazırlaması, nəşri, habelə kitab tarixi, məxəzşünaslıq, mətbuat tarixi, mətbuat tarixi, ədəbi tənqid, mədəni əlaqələr kimi müxtəlif sahələri əhatə edir.

***I aparıcı:*** Əziz Mirəhmədov ilk məqalələrini  Mir Cəlalın hekayələri, Süleyman Rəhimovun "Medalyon" povesti, Süleyman Rüstəmin şeirləri, Məmməd Razinin lirikası, Ə.Dəmirçizadənin "Dədə Qorqud" tamaşası, Əli Nəzminin satiraları haqqında yazmışdır. Az sonra o, yaxın ədəbi keçmişə müraciət edərək, Cabbarlı, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Məhəmməd Hadi və "Molla Nəsrəddin" jurnalı haqqında məqalələr çap etdirir. Elə bu zamandan da özünün gələcək tədqiqat sahəsini, dövrünü və üslubunu müəyyənləşdirir; o, Azərbaycan ədəbiyyatı tarixinin müxtəlif dövrlərindən və problemlərindən yazsa da əsasən,  XIX-XX əsrlər ədəbiyyatı, onun görkəmli sənətkarlarının həyat və fəaliyyəti ilə maraqlanır.

***II aparıcı:*** Gənc tədqiqatçı 40-cı illərdə dissertasiya yazır. Lakin müxtəlif ideoloji-siyasi səbəblər üzündən onu müdafiə edə bilmir. Az sonra M.Ə.Sabirin  həyat və yaradıcılığını öyrənməyə başlayır, M.Ə. Axundov və A.Şaiq haqqında kitab çap etdirir, rus klassik sənətkarlarından A.S.Puşkin, A.Ostrovski, V.Belinski, M.Qorkinin ədəbi irsindən bəhs edən məqalələr yazır, çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi" nin hazırlanmasında yaxından iştirak edir. Bu fundamental əsərin ikinci cildinin əsas müəlliflərindən və elmi redaktorlarından biri olur.

***I aparıcı:***    Lakin bütün bunlar onu əsas tədqiqat dövründən uzaqlaşmışdır. Hadi barədə araşdırmalarını davam etdirən Mirəhmədov şairin əsərləri üzərində apardığı elmi-nəzəri

müşahidələr və mətnşünaslıq işi əsasında tədqiqatını daha dərinləşdirir, mütəfəkkir şairin ədəbi yaradıcılığı, sənətkarlıq xüsusiyyətləri, publisistikası barədə fikir diapozunu genişləndirərək "Məhəmməd Hadi" monoqrafiyasını xeyli təkmilləşdirir. 1985-ci ildə yenidən çap olunan kitabda müəllif ilk nəşrin mətnini yenidən işləmiş, onu bir sıra təzə fakt və elmi müddəalarla zənginləşdirmişdir.

***II aparıcı:*** Klassik sənətkarların həyat və yaradıcılığın öyrənilməsinə xüsusi diqqət və qayğı ilə yanaşan Ə.Mirəhmədov onların bədii irsinin toplanılmasına və və nəşrinə böyük zəhmət, əmək sərf edən alim idi. Ümumi həcmi min müəllif vərəqindən çox olan 30-dan artıq kitabı tərtib və təhsil etmək, mətn mətbəədə yazılandan sonra korrekturasını oxumaq, onlara müqəddimə, elmi izah, şəhr, qeyd yazmaq-belə bir zəhmətin ağırlığını öz üzərinə götürüb, öhdəsindən bacarıqla gəlmək işi ilə filoloq-alimlər arasında ən çox Əziz Mirəhmədov fəxr edə bilərdi!

***I aparıcı:*** Azərbaycan müstəqillik qazandıqdan sonra qocaman alim qarşısında demək olar ki, heç bir maneə qalmamışdı. Belə ki, o artıq görkəmli vətənpərvər və millətçi ziyalılarımızdan Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu haqqında da geniş araşdırmalar aparır, onların yaradıcılığını və bioqrafiyalarını xalqa olduğu kimi çatdırmağa çalışırdı. Halbuki, bir vaxtlar bu vətənsevər şəxsiyyətlərin ünvanına xoş söz demək sovet dövlətini təhqir etməyə bərabər idi. Qocaman alim "Vətənpərvər" qəzetinə verdiyi müsahibədə Əli bəy Hüseynzadə haqqında deyirdi: "Əli bəy Hüseynzadə bizim ən bədbəxt mütəfəkkirimizdir. Hansı epitet qalıb ki, onun haqqında söyləməyək? Bircə faşist sözünü işlətməmişik onun adının qabağında. Biz Əli bəyin əsərlərində, şəxsiyyətində olan işığı, həqiqəti görə bilməmişik. Biz də görə bilməmişik, bizim müəllimlərimiz də görə bilməyib, heç müəllimlərimizin

müəllimləri də görə bilməyib" (Aslan Salmansoyun xatirələrindən).

***II aparıcı:*** Əziz Mirəhmədov öz işinə təkcə ədəbiyyatşünas alim kimi deyil, həm də vətənsevər vətəndaş kimi yanaşırdı. O, Azərbaycanın tarixi keçmişinə aid hər bir çaların millətin, xüsusən də gənc nəslin yaddaşında yaşaması üçün əlindən gələni edirdi. Onun Əzizə Cəfərzadə, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə və Xudu Məmmədov ilə birlikdə böyük söz ustadı Məhəmməd Füzulinin mənsub olduğu Bayat qəbiləsinin adını daş abidə ilə əbədiləşdirilməsi üçün o zaman ki, respublika rəhbərliyinə etdikləri 2 dekabr 1983-cü il tarixli yazılı müraciət buna bariz sübutdur.

## Ədəbiyyat siyahısı


**Əsərləri**
**Latın qrafikası ilə**

Azərbaycan jurnalistləri və naşirləri : ensiklopediya. - Bakı : Ərgünəş, 2013. - 272 s.

Əhməd bəy Ağaoğlu. - Bakı : Ərgünəş, 2014. - 264 s. - (cildli)

***Kiril qrafikası ilə***

Azərbaycanın Molla Nəsrəddini. - Bakı : Yazıçı, 1980. - 430 s.

Sabir. - Bakı : Azərb. SSR EA nəşriyyatı, 1958. - 441 s.

Yazıçılar, talelər, əsərlər : Məqalələr, oçerklər və qeydlər. - Bakı : Azərnəşr, 1978. - 312 s.

Sovet Azərbaycanının kitab mədəniyyəti : kütləvi oçerk. - Bakı : Azərnəşr, 1975. - 84, [11] s. : şək. - (cildli)

Məhəmməd Hadi. - Bakı : Uşaqgəncnəşr, 1962. - 202, [1] s.

***Dövri mətbuatda***

**Mirəhmədov Ə.** Əziz Mirəhmədovun "ilk sözü" : O Əhməd Bəy Ağaoğlunu əzəl "tanıdanlardan" biriydi // Qobustan. - 2015. - **№ 3**. - S. 20-21.

**Fərəcov S.** Görkəmli mətnşünas alim : [Əməkdar elm xadimi, filologiya elmləri doktoru Əziz Mirəhmədov haqqında] // Mədəniyyət. - 2017. - 15 fevral. - **№ 12**. - S. 15.

# Çoxsahəli elmi yaradıcılıq insanı Əziz Mirəhmədov

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 03
Çapa imzalanmışdır: 23.01.2020
Tirajı:100
Pulsuz